**MHŞT üzrə Çoxtərəfli Qrupun iclasının**

**Protokolundan Çıxarış № 30**

**Bakı şəhəri** **15 aprel 2014-cü il**

İştirak edirdilər:

**Çoxtərəfli Qrupun sədri**

Şahmar Mövsümov - ARDNF-nin İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri

**Çoxtərəfli Qrupun üzvləri**

Feyzulla Muradov - Energetika Nazirliyinin nümayəndəsi

Şahmirzə Səfərov – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi

Cəmilə Hadiyeva - Şirkətlər qrupunun nümayəndəsi

Kamran Məhərrəmov – Şirkətlər qrupunun nümayəndəsi

Araz Yusubov – Şirkətlər qrupunun nümayəndəsi

Qubad İbadoğlu - QHT-lər qrupunun nümayəndəsi

Azər Mehtiyev – QHT-lər qrupunun nümayəndəsi

İlham Hüseynli - QHT-lər qrupunun nümayəndəsi

Elçin Abdullayev - QHT-lər qrupunun nümayəndəsi

**Digərləri**

Fərid Fərzəliyev - MHŞT üzrə Katibliyin başçısı

Ülviyyə Mehralıyeva – MHŞT üzrə Katibliyin mütəxəssisi

Abbas Abbasov - MHŞT üzrə Katibliyin mütəxəssisi

Cəmalə Əliyeva - Dövlət Neft Fondunun nümayəndəsi

Fariz Əhmədov - Mur Stefens (Moore Stephens) audit şirkətinin nümayəndəsi

**İclasın gündəliyi:**

1. Yeni Memorandumun yekun layihəsinin müzakirəsi
2. Hesabat formalarının və Auditor üçün yeni Şərtlər Toplusunun müzakirəsi
3. DSMF-dən əldə olunan məlumatların müzakirəsi
4. Digər məsələlər

**Yeni Memorandumun yekun layihəsinin müzakirəsi üzrə qərara alındı:**

QHT-lər qrupu Memorandumun yekun layihəsinə Şirkətlər qrupu tərəfindən edilən son 2 dəyişikliyə İctimai Birliklərin MSŞA Koalisiyasının mövqeyini formalaşdıraraq, bununla bağlı MHŞT üzrə Katibliyi məlumatlandırsınlar.

**Hesabat formalarının və Auditor üçün yeni Şərtlər Toplusunun müzakirəsi üzrə qərara alındı:**

1. Koalisiyanın hazırladığı kontekstual xarakterli məlumatlar və icmal cədvəllər Auditorun ŞT-yə əlavə edilsin.
2. Auditor iclasda səslənmiş rəyləri nəzərə almaqla Katiblik və ARDNŞ-nin nümayəndələri ilə birgə ŞT-ni yekunlaşdırsın və Katiblik öz növbəsində yekun sənədi ÇQ üzvləri ilə bölüşsün.

**DSMF-dən əldə olunan məlumatların müzakirəsi üzrə qərara alındı:**

1. Növbəti hesabatlılıq dövründən etibarən DSMF-ə məcburi dövlət sosial sığorta haqları üzrə mədən sənayesi şirkətlərindən daxilolmalar MHŞT hesabatına kontekstual məlumat bölməsinə daxil edilsin.

**Digər məsələlər üzrə qərara alındı:**

1. Katiblik Azərbaycanın MHŞT üzrə 2014-cü il İş planına proqnozlaşdırılan maliyyə məbləği sütununu əlavə etsin və yenilənmiş İş planını ÇQ üzvlərinə göndərsin.
2. Hər bir ÇQ üzvü MHŞT üzrə Beynəlxalq Katibliyin Azərbaycanın 2014-cü il üzrə İş planına dair rəyini nəzərdən keçirsin və fikirlərini bütün ÇQ üzvləri bölüşsün.

ÇQ-nin iclası bağlı elan olundu.